Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
30 yanvar 2019-cu il tarixli iclasının
qərarı ilə (protokol № 5) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetində**
**"ADPU-nun Fəxri doktoru", "ADPU-nun Fəxri professoru" fəxri adılarının təqdim edilməsi, "ADPU-nun Şərəf kitabı"nın hazırlanması və ADPU-da auditoriyalara fəxri adların verilməsi haqqında**

# ƏSASNAMƏ

1. Azərbaycan Dövlət Pedaqoji Universitetində (bundan sonra – ADPU) "ADPU-nun Fəxri doktoru", "ADPU-nun Fəxri professoru" fəxri adılarının təqdim edilməsi, "ADPU-nun Şərəf kitabı"nın hazırlanması və ADPU-da auditoriyalara fəxri adların verilməsi haqqında əsasnamə (bundan sonra – əsasnamə) Azərbaycan Respublikası qanunvericiliyinə, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Nizamnaməsinə əsasən hazırlanmışdır.
2. Bu əsasnamə "ADPU-nun Fəxri doktoru", "ADPU-nun Fəxri professoru" fəxri adılarının təqdim edilməsi, "ADPU-nun Şərəf kitabı"nın hazırlanması və ADPU-da auditoriyalara fəxri adların verilməsi ilə bağlı məsələləri tənzimləyir.
3. "ADPU-nun Fəxri doktoru", "ADPU-nun Fəxri professoru" fəxri adı elmin, təhsilin və mədəniyyətin inkişafında xüsusi xidmətləri olan tanınmış elm, mədəniyyət, ictimai-siyasi xadimlərə verilən fəxri elmi dərəcə və fəxri elmi addır. ADPU-nun fəxri professor adı bir qayda olaraq elmi adı və elmi dərəcəsi olan şəxslərə, ADPU-nun fəxri doktoru adı isə elmi adı və elmi dərəcəsi olmayan şəxslərə verilə bilər.
4. "ADPU-nun Fəxri doktoru", "ADPU-nun Fəxri professoru" fəxri adlarının təqdim edilməsi, eləcə də "ADPU-nun Şərəf kitabı"nda qeyd aparmaq hüququ əsasən ADPU əməkdaşı olmayan, təhsilin, elmin, texnikanın, sənayenin, idarəetmənin, beynəlxalq münasibətlərin inkişafında, sülhün qorunması və möhkəmlənməsində xüsusi xidmətləri olan şəxslərə verilir.
5. "ADPU-nun Fəxri doktoru", "ADPU-nun Fəxri professoru" fəxri adları Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı və ADPU Elmi Şurasının qərarı ilə Azərbaycan və ya xarici ölkə vətəndaşı olan tanınmış elm, mədəniyyət, ictimai-siyasi xadimlərə verilir.
6. "ADPU-nun Fəxri doktoru", "ADPU-nun Fəxri professoru" fəxri adlarına layiq görülmüş şəxslərə ADPU-nun Elmi Şurasında və yaxud xüsusi təşkil olunmuş rəsmi tədbirlərdə ADPU-nun xüsusi diplomu, xatirə medalı və xüsusi mantiyası təqdim olunur.

7. “ADPU-nun Fəxri doktoru”, “ADPU-nun Fəxri professoru” fəxri adlarına layiq görülən şəxsin xüsusi çərçivədə 2 nüsxədə fotoşəkli hazırlanır, onlardan biri həmin şəxsə təqdim olunur, digəri isə ADPU-nun fəxri doktorları və fəxri professorları lövhəsində asılır.
8. “ADPU-nun Fəxri doktoru”, “ADPU-nun Fəxri professoru” fəxri adları verilmiş şəxslər ADPU-nun tədbirlərində, o cümlədən Elmi Şuranın iclaslarında qonaq kimi iştirak edə, tələbə və professor-müəllim heyəti ilə görüşlər keçirə, mühazirələr apara, həmçinin ADPU-nun idarə edilməsi, universitetin ayrı-ayrı strukturlarının fəaliyyətinin səmərəli təşkili, beynəlxalq əlaqələrinin genişləndirilməsi və s. məsələlərlə bağlı rektora təklif və tövsiyələr verə bilər.
9. “ADPU-nun Fəxri doktoru”, “ADPU-nun Fəxri professoru” fəxri adlarına layiq görülmüş şəxslərin, universiteti ziyarət edən tanınmış alimlərin, nüfuzlu şəxslərin ürək sözlərini qeyd etməsi üçün hazırlanmış, 100 səhifədən ibarət, xüsusi cildlənmiş “ADPU-nun Şərəf kitabı” universitet rektorunun otağında saxlanılır. Kitab tam dolduğu təqdirdə qorunmaq üçün universitetin müzeyinə təqdim olunur və yeni “Şərəf kitabı” hazırlanır.
10. ADPU-nun inkişafında müstəsna xidmətləri olmuş alimlərin, tanınmış məzunların, təhsilin, elmin, texnikanın, sənayenin, idarəetmənin, beynəlxalq münasibətlərin inkişafında, sülhün qorunması və möhkəmlənməsində xüsusi xidmətləri olan şəxslərin adının əbədiləşdirilməsi məqsədilə universitetin ayrı-ayrı auditoriyalarına onların adları verilə bilər. Universitetin auditoriyalarına fəxri adlar, fakültə Elmi Şurasının təşəbbüsü ilə, universitetin Elmi Şurasının qərarı və rektorun əmri ilə verilə bilər.
11. ADPU-nun tanınmış məzunları və keçmiş əməkdaşlarının adının əbədiləşdirilməsi məqsədilə fakültə elmi şurasının təşəbbüsü, universitet Elmi Şurasının qərarı və rektorun əmri ilə müvafiq yerdə barelyef vurula bilər.
12. Ayrı-ayrı şirkətlərin və iş adamlarının maddi-texniki köməkliyi ilə qurulan tədris laboratoriyalarına və ya auditoriyalara da fakültə elmi şurasının təşəbbüsü ilə, universitet Elmi Şurasının qərarı və rektorun əmri ilə müvafiq ad verilə bilər.
13. “ADPU-nun Fəxri doktoru”, “ADPU-nun Fəxri professoru” fəxri adları ömürlük verilir. “ADPU-nun Fəxri doktoru”, “ADPU-nun Fəxri professoru” fəxri adları qanun və ənənənin müəyyən etdiyi hüquq, imtiyaz və üstünlükləri təmin edir.
14. Bu əsasnamə ADPU Elmi Şurasında qəbul olunur, rektorun əmri ilə təsdiq olunur, ona dəyişiliklər və əlavələr də eyni qaydada həyata keçirilir.

**Əlavə olunur:**

1. ADPU-nun fəxri doktorunun və fəxri professorunun diplomunun nümunəsi;
2. ADPU-nun fəxri doktorunun və fəxri professorunun mantiyasının nümunəsi;
3. ADPU-nun xatirə medalının nümunəsi;
4. ADPU-nun fəxri doktorunun və fəxri professorunun xatirə fotoşəklinin nümunəsi;
5. ADPU-nun Şərəf kitabının nümunəsi.
6. ADPU-nun auditoriyalarına verilmiş fəxri adların tanıtım löhvəsinin yazılma nümunəsi.